## Avropa Birliyi böhrandan cıxış yolu tapa bilmir

«Fitch Ratings» beynəlxalq reytinq agentliyi dünya ölkələrinin kredit reytinqi ilə bağlı proqnozlarına dəyişiklik edib. Yeni kredit reytinqində Avropanın əksər dövlətlərinin reytinqi sabit saxlansa da, bəzi ölkələrin reytinqi aşağı salınıb.

***Türkiyənin kredit reytinqi***
***«BB+»dan «BBB»yə qaldırılıb...***

Yeni reytinq şkalasında Türkiyənin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Agentlik Türkiyənin kredit reytinqini «BB+»dən «BBB»yə qaldırıb. Bununla da qardaş ölkə Avropanın inkişaf etmiş dövlətlərinin investisiya reytinqinə yaxınlaşıb. «Fitch Ratings» Türkiyənin uzunmüddətli suveren kredit reytinqini artırarkən bu ölkənin bir sıra maliyyə öhdəliklərini, daxili və xarici bazarlardakı vəziyyətini, makroiqtisadiyyatın bütün sahələri üzrə son aylar müsbət meyillər əldə etməsini, investisiya göstəricilərini nəzərə alıb. Qurumun ekspert qrupunun rəyində qeyd olunur ki, Türkiyənin reytinqinin artırılması xarici qeyri-sabitliklərə qarşı dayanıqlı olması ilə bağlıdır. Ölkə iqtisadiyyatının artım tempinin yüksəlməsi, yaxın gələcəkdə mikromaliyyə riskləri ilə bağlı vəziyyətin yaxşılaşacağı, dövlət borcunun azalması və güclü bank sistemi reytinqin təyin olunması üçün möhkəm əsaslar yaradır. Son altı ayda Türkiyənin maliyyə, qiymətli kağızlar, istiqraz, valyuta bazarı inkişaf edib və xarici təsirlərə, xüsusilə də Avropa borc böhranının fəsadlarına məruz qalmayıb, nəticədə sabit makromaliyyə vəziyyəti ölkənin dayanıqlı inkişafına zəmin yaradıb. Türkiyənin valyuta və bank sistemində pozitivlik türk lirəsinin digər xarici dönərli valyutalarla nisbətdə mübadilə məzənnəsinin artmasına səbəb olub. Son  üç ayda Türkiyənin istiqrazlar bazarında faiz dərəcələri 6,8%-dən 7,5%-ə qədər artıb, eləcə də valyuta bazarında bir ABŞ dolları 1,7816; bir avro isə 2,2795 türk lirəsinə qədər aşağı düşüb.

«Fitch Ratings» Türkiyənin kredit reytinqini qaldırmaqla yanaşı, Avropa Birliyi ölkələrindən Yunanıstan, İrlandiya, Portuqaliya, İspaniyanın reytinqlərini aşağı salıb. Qurum avrozona ölkələrindən İtaliya, Sloveniya, Belçika kimi inkişaf etmiş ölkələrin kredit reytinqini sabit saxlayıb. Agentliyin mövqeyinə görə, həmin dövlətlərin səhm bazarı, qiymətli kağızlar, istiqraz və digər maliyyə alətləri öz dəyərini itirməkdədir. Bunun nəticəsidir ki, Avropanın ən iri birja və fondlarında səhmlərin, digər qiymətli kağızların indeksləri düşməkdə davam edir. Bu kimi amillər isə investisiya və kredit reytinqlərinin azaldılmasında başlıca rol oynayır.

***«Fitch» Avropa Birliyini yeni böhran barədə xəbərdar etdi...***

«Fitch»in analitikləri qeyd edirlər ki, Avropa Birliyi ölkələrinin hökumətləri və maliyyə strukturlarına nəzarət edən qurumlar bank-kredit təşkilatlarına öz dəstəyini göstərməsə, onların mövcud ehtiyatlarının potensial tükənməsi baş verə bilər və bu faktorun iqtisadiyyatın maliyyə təminatında ciddi fəsadlara yol açacağı qaçılmaz olar. Belə bir şəraitdə bəzi ölkələrin öz daxili borc öhdəlikləri ilə yanaşı, xarici borc öhdəlikləri də artmış olacaq ki, bu da vəziyyətin həddindən artıq pis nəticələnəcəyini proqnozlaşdırmağa əsas verir. Xarici borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini  pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyə də mənfi təsir göstərir. Digər tərəfdən, hər hansı ölkənin milli təhlükəsizliyinin xüsusi bir şkalaya yaxınlaşması, qorxulu bir tendensiyaya gəlib çatması onun xarici ticarət dövriyyəsinin həcmi ilə mütənasibliyində özünü göstərir.

«Fitch Ratings» Avropa Birliyi ölkələrini xəbərdar edərək yeni böhrana qarşı təsirli tədbirlər görülməyəcəyi halda, onların iqtisadiyyatında baş verəcək resessiyaların fonunda beynəlxalq reytinqlərinin də aşağı salınacağını istisna etməyib. İnkişaf etmiş ölkələrin kredit reytinqlərinin aşağı düşməsi isə iqtisadiyyatın real sektoruna təsir edərək yoxsulluğun və işsizliyin səviyyəsinin artmasına gətirib çıxara bilər.

***Avrozona ölkələrində büdcə xərcləri azaldılır,  vergi dərəcələri artırılır***

Avropada maliyyə və iqtisadi böhranın başqa bir fəsadı büdcə gəlirlərinin formalaşmasında yaranan çətinliklərlə bağlıdır. Avrozonanın əksər ölkələrində 2013-cü ilin dövlət büdcəsi layihəsi ilə bağlı ciddi fikir ayrılıqları mövcuddur. Bu ölkələrin büdcə gəlirlərini formalaşdırmaq üçün maliyyə çatışmazlığı yarandığından gələn il bir sıra sahələrə ayrılan xərclərin «qayçılanması», daha çox sosial sahələrə ayrılan xərclərin azaldılması nəzərdə tutulur. Artıq bəzi ölkələrin parlamentləri büdcədə sosial xərclərin azaldılması barədə qərar qəbul edib. Bunun nəticəsidir ki, İtaliya, İspaniya,

Portuqaliya, Yunanıstan və digər avrozona ölkələrində əhalinin kütləvi narazılığı ilə müşayiət olunan yürüş və mitinqlər son günlərdə daha da genişlənib.

Avropada vətəndaşların narazılığının güclənməsinə səbəb olan amillərdən biri də vergi dərəcələrinin artırılmasıdır. Avropa ölkələrində böhrandan çıxmaq məqsədilə mövcud vergi dərəcələrinin yüksəldilməsi ilə yanaşı, əlavə vergi növləri də tətbiq edilir. Təkcə Fransada gələn il müəssisə və fiziki şəxslər üzrə vergilərin 10 milyard avro artırılması nəzərdə tutulur. Yeri gəlmişkən, həmin ölkələrdə bir çox vergi dərəcələri Azərbaycanla nisbətdə xeyli yüksəkdir. Birbaşa vergilərin üstünlük təşkil etdiyi ölkələrdə fiziki şəxslərdən gəlir vergisi 40%-50% arası təşkil edir. Buna baxmayaraq, İtaliya, İspaniya, Yunanıstan, İrlandiya, Portuqaliya hökumətləri 2013-cü il üçün vergilərin artırılmasını nəzərdə tutan büdcə layihəsini parlamentə təqdim ediblər. İspaniya parlamenti isə vergilərin 18%-dən 21%-ə qədər artırılması barədə qanun layihəsini ilkin oxunuşda qəbul edib. Avropalı ekpertlər vergilərin artırılmasını «maliyyənin atom bombası» adlandırırlar. Analitiklərin fikrincə, maliyyə əməliyyatları vergisi və əmlak vergisinin artırımasını nəzərdə tutan sərt antiböhran tədbirləri avrozona ölkələri üçün ciddi iqtisadi problemlər yarada bilər.

Azərbaycanda isə büdcə artır...

Göründüyü kimi, Avropa Birliyi ölkələrində dövlət büdcəsinin xərcləri, xüsusilə də sosial xərclər azaldılır, vergi dərəcələri artırılır. Azərbaycanda isə hər il büdcənin gəlir və xərcləri artırılır. Büdcə gəlirlərinin böyük bir hissəsi insanların sosial müdafiəsinin gücləndirilməsi üçün nəzərdə tutulur. Azərbaycan regionda o ölkələrdəndir ki, büdcə tərtibatında maliyyə problemi ilə üzləşmir, əksinə, respublikamızın büdcə gəlirləri ilə bərabər, Mərkəzi Bankda və Dövlət Neft Fondunda saxlanılan valyuta ehtiyatlarının həcmi artır.

Azərbaycanda vergi dərəcələrinin aşağı salınması - fərdi sahibkarlardan gəlir vergisi dərəcəsinin 35%-dən 20%-ə, müəssisələrdən mənfəət vergisinin 22%-dən 20%-ə endirilməsi, fiziki şəxslərdən gəlir vergisinin yuxarı həddinin isə 35%-dən 30%-ə salınması, əlavə dəyər vergisinin 20%-dən 18%-ə endirilməsi, eləcə də sadələşdirilmiş vergi ödəyiciləri üçün dövriyyə məbləğinin səviyyəsinin 90 mindən 150 min manata qaldırılması fonunda son illərdə büdcəyə vergi daxilolmalarının həcmi artmaqdadır. Xüsusilə də iqtisadiyyatın qeyri-neft sektorundan daxilolmalar artır, vergi bazasının genişlənməsi müşahidə olunur.

Elbrus CƏFƏRLİ